AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 88

Bakı şəhəri "23" oktyabr 2015-ci il

**"Həkim-rezidentin nümunəvi vəzifə təlimatı"nın təsdiq edilməsi barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"na uyğun olaraq rezidenturada həkim-mütəxəssislərin hazırlığının təkmilləşdirilməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Həkim-rezidentin nümunəvi vəzifə təlimatı" təsdiq edilsin (əlavə olunur).

2. Klinik baza rəhbərlərinə tapşırılsın ki, bu əmrlə təsdiq edilmiş nümunəvi vəzifə təlimatına uyğun olaraq rəhbərlik etdikləri müəssisələrdə rezidentura təhsili alan həkim-rezidentlərin vəzifə təlimatlarının təsdiq olunması təmin edilsin.

3. Əmrin icrasına nəzarət nazir müavini A.Vəlibəyova həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
23. 10. 2015-ci il tarixli 88 nömrəli
əmri ilə təsdiq edilmişdir

## HƏKİM-REZİDENTİN NÜMUNƏVİ VƏZİFƏ TƏLİMATI

### 1. Ümumi müddəalar

1.1. Bu vəzifə təlimatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"na uyğun olaraq həkim-rezidentin vəzifə öhdəliklərini, hüquq və məsuliyyətini müəyyən edir.

1.2. Həkim-rezident vəzifəsinə Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən rezidenturaya qəbul olunmuş, Azərbaycan Respublikası Səhiyyə Nazirliyində qeydiyyatdan keçmiş və nazirliklə "Rezidenturada həkim-mütəxəssis hazırlığı haqqında müqavilə" bağlamış şəxs təyin edilir.

1.3. Həkim-rezident Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq rezidentura hazırlığı aparılan klinik baza rəhbərinin əmri ilə vəzifəyə təyin və vəzifədən azad edilir.

1.4. Həkim-rezident bilavasitə şöbə müdirinə tabe olur.

1.5. Həkim-rezidentə klinik baza rəhbərinin əmri ilə kurator təyin olunur. Həkim-rezidentin kuratoru onun müvafiq ixtisas üzrə zəruri olan nəzəri bilik və peşə vərdişlərinə yiyələnməsini təmin edir;

1.6. Həkim-rezident pasiyentlərə göstərilən xidmətlər üzrə öz vəzifələrini (klinik tapşırıqları) kurator, müalicə həkimi yaxud cavabdeh növbətçi həkimin nəzarəti altında həyata keçirir. Nəzarətin səviyyəsi barədə kurator və şöbə müdiri birgə qərar verir;

1.7. Həkim-rezidentin pasiyentlərə göstərilən xidmətlərdə iştirak səviyyəsi barəsində onun təhsil ili, səriştəliyi, pasiyentin vəziyyəti və xəstəliyinin ağırlığı nəzərə alınmaqla kurator, müalicə həkimi və şöbə müdiri tərəfindən birgə qərar verilir;

1.8. Həkim-rezident aşağıdakıları bilməlidir:

1.8.1. Azərbaycan Respublikasının səhiyyə haqqında qanunvericiliyinin əsaslarını;

1.8.2. xəstəxana və ambulator-poliklinik müəssisələrdə, təcili və təxirəsalınmaz hallarda əhaliyə müalicə-profilaktika və dərman yardımının təşkilinin əsaslarını;

1.8.3. ixtisası üzrə xidmətin təşkili, strukturu, ştatları və təchiz edilməsi ilə bağlı məsələləri;

1.8.4. öz ixtisası üzrə qüvvədə olan təlimat-metodik sənədləri;
1.8.5. tibbi sənədlərin rəsmiləşdirilməsi qaydasını;
1.8.6. əmək qabiliyyətinin müvəqqəti itirilməsinin ekspertizasının aparılması qaydasını və tibbi sosial ekspertiza üçün göstərişləri;
1.8.7. dispanserizasiyanın həyata keçirilməsinin əsaslarını;
1.8.8. tibbi sığorta şəraitində səhiyyə müəssisəsinin və tibb işçilərinin fəaliyyətinin təşkilati-iqtisadi əsaslarını;
1.8.9. həkimlərin etik davranış qaydalarını, tibbi etika və deontologiyanın əsaslarını;
1.8.10. əsas tibb təhsili və rezidenturada təhsil aldığı təhsil illəri səviyyəsində insan bədəninin üzv və sistemlərinin funksional vəziyyətinin diaqnostikasının, xəstələrin müalicəsi, reabilitasiyası, profilaktikasının prinsip və əsas üsullarını;
1.8.11. sanitar-maarifləndirmənin əsaslarını;
1.8.12. rezidentura hazırlığı keçdiyi klinik baza və rotasiyalarda olduğu tibb müəssisələrininin daxili əmək intizamı qaydalarını, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğına qarşı mühafizə qayda və normalarını;
1.8.13. öz ixtisası üzrə rezidentura təhsil proqramının tələblərini.

1.9. Həkim-rezident aşağıdakıları bacarmalıdır:
1.9.1. ixtisisasın təhsil proqramı üzrə rezidenturada təhsil illərinə uyğun səviyyədə pasiyentlərə tibbi xidmət göstərməyi;
1.9.2. təxirəsalınmaz tibbi yardım göstərməyi;
1.9.3. pasiyentlər yaxud onların qanuni nümayəndələri, həmkarları ilə etik davranış qaydalarına uyğun və effektiv ünsiyyət qurmağı;
1.9.4. sanitar-maarifləndirməni həyata keçirməyi;
1.9.5. məlumat-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməyi;
1.9.6. öz ixtisasına aid etibarlı milli və beynəlxalq tibbi mənbələrdən istifadə etməyi.

## 2. Həkim-rezidentin vəzifə öhdəlikləri

1.10. Təhsil ilinin əvvəlində "Rezidentin fərdi iş planı forması"na (əlavə olunur) uyğun öz fərdi iş planını kuratorun köməyi ilə tərtib edir, tam yerinə yetirir və təhsil ilinin sonunda attestasiyadan əvvəl onun əsasında hesabat verir;

1.11. Kuratorun/müalicə həkiminin/cavabdeh növbətçi həkimin nəzarəti altında pasiyentlərə tibbi xidmətlərin göstərilməsində (prosedur və əməliyyatların icra edilməsi daxil olmaqla diaqnostika, müalicə, reabilitasiya, profilaktika tədbirlərinin qüvvədə olan standartlara uyğun həyata keçirilməsində) təhsil ilinə və səriştəliyinə uyğun səviyyədə iştirak edir. Kurator və şöbə müdiri tərəfindən səriştəlik səviyyəsi müəyyən edilir, pasiyentin vəziyyətinin və xəstəliyinin ağırlığı da nəzərə alınmaqla klinik tapşırıqlar verilir;

1.12. Pasiyentlərin vəziyyətində hər hansı narahatlıq doğuran hal müşahidə etdiyi zaman dərhal müalicə həkiminə məlumat verir;

1.13. Səhiyyə qanunvericiliyinə, sahəvi normativ hüquqi aktlara və təlimat-metodik sənədlərə əməl edir;

1.14. Tabelik prinsipinə əməl edir;
1.15. Kurator, şöbənin həkimləri və şöbə müdirinin onun gündəlik fəaliyyəti barədə verdiyi rəyləri qəbul edir və tövsiyələri nəzərə alır;
1.16. Verilmiş tapşırıqları vaxtında və keyfiyyətli yerinə yetirir;
1.17. Pasiyentlərə və yaxud onların qanuni nümayəndələrinə özünü təqdim edir;
1.18. Hazırlıq keçdiyi klinik bazanın müəssisədaxili intizam qaydalarına, iş rejiminə və növbətçilik qaydalarına riayət edir;
1.19. Gündəliyə tələb olunan məlumatları vaxtında daxil edir;
1.20. Rezidentura hazırlığı yaxud rotasiya keçdiyi tibb müəssisəsindəki ümumi və rezidentlərlə bağlı yığıncaqlarda, xəstə müzakirələri və ölüm hallarının müzakirələrində, konfranslarda iştirak edir;
1.21. Təhsil proqramında tələb olunan digər məşğələlərdə (mühazirələr, məqalə müzakirələri və sair) iştirak edir;
1.22. Təhsil proqramının tələblərinə uyğun elmi-tədqiqat işi aparır;
1.23. Təhsil proqramında müəyyən edilmiş saydan az olmayaraq, müəssisə rəhbərliyi tərəfindən müəyyən edilmiş növbətçilik cədvəlinə uyğun olaraq, cavabdeh növbətçi həkimin nəzarəti ilə gecə növbələrində qalır;
1.24. Kurator və/yaxud şöbə müdirinin tapşırığına əsasən pasiyentlərə və onların ailə üzvlərinə sağlam həyat tərzinin formalaşdırılması məsələləri üzrə məsləhətlər verir;
1.25. Tibbi sənədləşmənin aparılmasında iştirak edir;
1.26. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinin ekspertizasının aparılmasında iştirak edir;
1.27. Müəssisə rəhbərliyinin əmr, sərəncam və tapşırıqlarını peşəkar səviyyədə və vaxtında icra edir;
1.28. Daxili intizam, yanğın təhlükəsizliyi və təhlükəsizlik texnikası qaydalarına, sanitariya-epidemioloji rejimə riayət edir. Tibb müəssisəsinin fəaliyyətinə, işçilərinə, pasiyentlərə təhlükə yaradan amilləri (təhlükəsizlik texnikası, yanğına qarşı və sanitariya qaydalarının pozulması və sair ilə bağlı) müəyyən etdikdə rəhbərliyi dərhal məlumatlandırır;
1.29. Hər təhsil ilinin sonunda attestasiyadan (dövri yaxud yekun) əvvəl elmi (tibbi) şura qarşısında fərdi iş planının yerinə yetirilməsi ilə bağlı hesabat verir;
1.30. Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilən rezidentura ilə bağlı müzakirələrdə, sorğularda iştirak edir;
1.31. Rezidentura hazırlığının son ilində təhsil proqramında müəyyən edilmiş müddətə uyğun olaraq stajorluq keçir;
1.32. Müəyyən olunmuş qaydada dövri və yekun attestasiyalarda iştirak edir;
1.33. Şöbədə ona həvalə olunmuş digər vəzifələri həyata keçirir.

### 3. Həkim-rezidentin hüquqları

1.34. Təhsil proqramı ilə tanış olmaq;
1.35. Qüvvədə olan sahəvi normativ hüquqi, təlimat-metodik sənədlərlə tanış olmaq;
1.36. Klinik bazanın daxili intizam qaydaları ilə tanış olmaq;
1.37. Rəhbərliyə kuratorun dəyişdirilməsi ilə bağlı müraciət etmək;

1.38. Səhiyyə Nazirliyi yaxud klinik bazanın göndərişi ilə xarici ölkə klinikalarında rotasiya keçmək yaxud konfransda, simpoziumda iştirak etmək;
1.39. Pasiyentlərin müayinə, müalicə, profilaktika, reabilitasiyasında, tibbi sənədləşmənin aparılmasında (təhsil ili, səriştəliyi, pasiyentlərin vəziyyətinin və xəstəliyinin ağırlığı nəzərə alınmaqla) iştirak etmək;
1.40. Qanunvericilikdə nəzərdə tutulan digər hüquqlarından istifadə etmək.

**4. Həkim-rezidentin məsuliyyəti**

1.41. Həkim-rezident vəzifə öhdəliklərini yerinə yetirmədikdə Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

"Həkim-rezidentin nümunəvi vəzifə təlimatı"na əlavə

## REZİDENTİN FƏRDİ İŞ PLANI FORMASI

**Klinik baza** ______________________________

**Şöbə/kafedra** ______________________________

**İxtisas** ______________________________

**Rezident** ______________________________
Soyadı, adı, atasının adı

**Kurator** ______________________________
Soyadı, adı, atasının adı

**Rezidentura təhsilinin başladığı tədris ili** ____________________

**Rezidentura təhsilinin müddəti** ____________________

## REZİDENTURA TƏHSİLİ ƏRZİNDƏ REZİDENTİN PRAKTİKİ TİBBİ FƏALİYYƏTİ ÜZRƏ PLAN[1]

| № | Klinik fəaliyyət | Assistentlik | Nəzarətlə sərbəst |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

[1] Rezidentura təhsili dövründə praktiki tibbi fəaliyyətə aid tələblər ixtisas üzrə təhsil proqramında verilmişdir.

_________ təhsil ili ____________________ tədris ili

| Tədris ilində keçilməsi planlaşdırılan mütləq rotasiyalar | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| № | Rotasiyanın kodu | Rotasiyanın adı | Kreditin sayı | Rotasiyanın müddəti (həftə) | Rotasiyanın planlaşdırılan tarixi | Klinik baza, şöbə/ kafedra | Gecə növbələrinin planlaşdırılan sayı | Qeyd |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| Tədris ilində planlaşdırılan seçim rotasiyası | | | | | | | | |
| | | | | | | | | |

| Elmi-tədqiqat işi üzrə planlaşdırılan fəaliyyətlər | | |
|---|---|---|
| № | Planlaşdırılan ay | Fəaliyyət |
| 1. | | |
| 2. | | |
| 3. | | |
| 4. | | |
| 5. | | |
| 6. | | |
| 7. | | |
| 8. | | |
| 9. | | |
| 10. | | |

| Planlaşdırılmış digər fəaliyyətlər | | |
|---|---|---|
| № | Planlaşdırılan ay | Fəaliyyət |
| 1. | | |
| 2. | | |
| 3. | | |
| 4. | | |
| 5. | | |

**Qeyd:** Fərdi iş planı kuratorun köməkliyi ilə rezident tərəfindən ixtisas üzrə təhsil proqramına uyğun tərtib edilərək rezidentin işlədiyi şöbənin müdiri ilə razılaşdırılır və hər tədris ilinin oktyabr ayının 10-dək təsdiq üçün elmi yaxud tibbi şuraya təqdim olunur. Şöbədəki işin xüsusiyyətləri nəzərə alınmaqla zərurət olduqda şöbə müdiri tərəfindən fərdi iş planına təklif olunan dəyişikliklər klinik baza rəhbərliyi tərəfindən təsdiq olunur və fərdi iş planına əlavə olunur.

**Şöbə müdiri** ______________ / ____________________________ /
imza soyadı, adı, atasının adı

**Elmi (tibbi) şuranın sədri** ______________ / ____________________________ /
imza soyadı, adı, atasının adı

**Kurator** ______________ / ____________________________ /
imza soyadı, adı, atasının adı

**Rezident** ______________ / ____________________________ /
imza soyadı, adı, atasının adı

**Tarix** ________________ 20____ **il**

MY